*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin* **ELMİ ƏSƏRLƏRİ № 25, 2018**
**УЧЁНЫЕ ЗАПИСКИ***Азербайджанского Государственного Университета Культуры и Искусств* **№ 25, 2018**
**SCIENTIFIC NEWS** ***of Azerbaijan State University of Art and Culture*** **№ 25, 2018**

**UOT 008**

***Günəş Cəbrayılova***
***Azərbaycan Dövlət Mədəniyyət və***
***İncəsənət Universitetinin doktorantı***
***Az-1065, Bakı, İnşaatçılar prospekti 39***
***E-mail:*** g.jabrayilova@yandex.ru

# İNSAN HÜQUQLARI: ETİQAD VƏ AZADLIQLAR

**Xülasə:** İnsan hüquqlarının tarixi qloballaşmadan çox qədimdir. İnsan hüquqları hər bir cəmiyyətin demokratik inkişafının tənzimləyicisidir. Vətəndaşların və ayrı-ayrı fərdlərin hüquqlarının qorunması problemi qloballaşma prosesinin əsas istiqamətlərindən hesab olunur. İnsan hüquqları cəmiyyətdə baş verən bütün vacib hadisələri ölçməyə imkan verən universal dəyərlərdir. Qloballaşma prosesində insan hüquq və azadlıqlarının təmin olunması beynəlxalq münasibətlər sistemində aktual problemlərdən biridir.

**Açar sözlər:** insan hüquqları, azadlıq, qanunvericilik, "Böyük Azadlıqlar Xartiyası" ("Maqna Karta"), konstitusiya, demokratik dövlət.

Son illər baş verən hadisələrə diqqət yetirsək, terror aktları, vətəndaş müharibələri, cinayətlər, etnik münaqişələr, nüvə silahının istehsalı kimi hadisələrin sürətlə yayıldığının şahidi oluruq. Belə şəraitdə mühüm məsələ hüquqların bərpa edilməsi, əsas insan hüquq və azadlıqlarına qarşı yönəlmiş aktların qarşısının alınmasıdır. İnsan hüquqlarına riayət etmək hər bir demokratik dövlətin borcudur. İnsan hüquqlarının konsepsiyasının işlənib hazırlanması və beynəlxalq standartlar səviyyəsinə qaldırılması bəşəriyyətin ən böyük nailiyyətlərindən hesab olunur. İnsan hüquqları ideyasının tarixi kökü təxminən e.ə. VI-V əsrlərə gedib çıxır. Belə ki, hələ o dövrdə Afina və Romada bu ideyalar meydana gəlməyə başlamışdır. Doğrudur, bu fikirlər o zaman insan hüquqları adlanmasa da, onlar öz mahiyyəti etibarilə indiki insan hüquqlarının ilk rüşeymləri idi. Buna misal olaraq, ilk demokratlardan olmuş Afinalı Periklin xalqın xeyrinə həyata keçirdiyi islahatları və ya Qədim Romada plebeylerlə patrisilər arasında gedən mübarizəni göstərə bilərik. Lakin o dövrdə insan hüquqları dedikdə yalnız quldurlara məxsus hüquqlar göstərilirdi və qulların heç bir hüququ yox idi. [5, s.10] Cəmiyyət inkişaf etdikcə insanlar öz hüquq və azadlıqları uğrunda daha mütəşəkkil şəkildə mübarizə aparmağa başladılar. 1215-ci ildə İngiltərədə dünya tarixində ilk sənəd olan "Böyük Azadlıqlar Xartiyası" ("Maqna Karta") qəbul olundu. Üsyana qalxmış ingilis baronlarının birgə qüvvələrinə məğlub olan Kral Con "Magna Carta Libertatum" adlanan sənədə imza atdı. Bu sənədin əhəmiyyəti ondan ibarətdir ki,

dünya tarixində ilk dəfə kral öz hakimiyyətini feodalların xeyrinə məhdudlaşdırırdı. Xartiya bütün tacirlərə hər hansı qanunsuz ödəmələr olmadan almaq və satmaqdan ötrü İngiltərəyə azad və təhlükəsiz səyahət etmək, İngiltərəyə gəlmək və getmək hüququ verirdi. Bundan sonra İngiltərədə insan hüquqları uğrunda mübarizə gücləndi. İnsanların məhkəmə qərarı olmadan həbs edilməsi qadağan olundu. 1689-cu ildə Hüquqlar haqqında Bill qəbul olundu. Bu isə insan hüquqları sahəsində daha bir nailiyyət idi. Daha sonra Böyük Şura təsis edildi. 1240-cı ildə bu şura Parlament adlandı. Qeyd etmək lazımdır ki, bu sənəd hal-hazırda da öz əhəmiyyətini saxlamaqdadır. Belə ki, 2009-cu ildə YUNESKO Xartiyanı "Dünyanın yaddaşı" reyestrinə salmışdır.

Hakimiyyət bölgüsü nəzəriyyəsinin dövlət hakimiyyətində qarşılıqlı münasibətlərini antik və orta əsr mütəfəkkirləri irəli sürsələr də, onun ilk yaradıcısı XVII əsrin ikinci yarısında ingilis alimi və mütəfəkkiri Con Lokk olmuşdur. İnsan hüquqları ilk əksini ingilis filosofu və siyasətçisi Con Lokkun "Dövlət haqqında ikinci məruzə" adlı əsərində tapdı. Əsər 1688-ci ildə İngiltərə inqilabından sonra nəşr olunmuşdu. Con Lokkun yaradıcılıq ideyaları XVII əsr fransız materialistlərinə və XIX əsrin əvvəllərində cərəyan edən utopik sosializmə çox mühüm təsir göstərmişdir. Lokk tərəfindən icad edilmiş hakimiyyət bölgüsü və dövlətdə onların qarşılıqlı münasibətləri, sonradan böyük fransız mütəfəkkiri Şarl Lui Monteskye tərəfindən müdafiə edilərək, özünün daha da təkmili mexanizmi yönümündə inkişaf etmişdir. Hakimiyyət bölgüsünün müəyyən edilməsində ilk dəfə Monteskye siyasi azadlığın təminatını irəli sürmüşdür. O, vətəndaşın siyasi azadlığı adı altında onun ruhən sərbəstliyini, təhlükəsizliyinə inamını və hüquqlarının toxunulmazlığını başa düşürdü. Monteskye "Qanunların ruhu haqqında" adlı əsərində bu məsələlərə yaxından yanaşaraq qanunverici, icra və məhkəmə hakimiyyətlərinin müstəqil bölgüsü əsasında qarşılıqlı fəaliyyətlərindən ətraflı bəhs etmişdir. 1689-cu ildə ABŞ-da "Hüquqlar haqqında Bill", 1776-cı ildə ABŞ-da "İstiqlal Bəyannaməsi" qəbul olundu. "İstiqlal Bəyannaməsi" müstəmləkələrin metropoliyadan ayrılmasını və yeni müstəqil dövlətin - Amerika Birləşmiş Ştatlarının yaranmasını, xalqın suverenliyi ideyasını, bütün insanların qanun qarşısında bərabərliyini və "yaşamaq, azadlıq və xoşbəxtlik arzusunda olmaq" hüququnu elan etdi. Hakimiyyət bölgüsü özünün müstəqil təlim şəklinə salınmasından sonra ilk dəfə Fransa inqilabının Konstitusiya aktında, daha sonra 1787-ci ildə ABŞ-nın Konstitusiyasında təsbit edilməklə yanaşı, həmin siyasi-hüquqi və praktik nəzəriyyənin tarixi inkişaf prosesi nəticəsində 1853-cü il mayın 1-də qəbul edilmiş Argentina Konstitusiyasını da qeyd etmək lazımdır. Argentina Latın Amerikasının iri dövlətlərindən və iqtisadi cəhətdən çox inkişaf etmiş ölkəsidir. 1853-cü il Argentina Konstitusiyasına görə qanunvericilik hakimiyyəti konqresə, icraedicilik hakimiyyəti prezidentə, məhkəmə hakimiyyəti funksiyası isə Argentinanın məhkəmə sisteminə həvalə edilmişdir. Bu Konstitusiyaya 1886-1919-cu illərdə müxtəlif əlavə və düzəlişlər edilmişdir.

"Millətlər Liqası" üzvü olan dövlətlər dünyada sülhün və təhlükəsizliyin qorunması, dövlətlərin ərazilərinə kənar müdaxilələrin yolverilməzliyi, özgə

ərazisini işğal etmək istəyən dövlətlərə qarşı sanksiyaların tətbiq edilməsi, mübahisəli məsələlərin danışıqlar yolu ilə aradan qaldırılması, qarşılıqlı-faydalı əməkdaşlığın yaradılması və s. kimi müasir dövr üçün də səciyyəvi olan beynəlxalq hüquq normalarını ilk dəfə 1921-22-ci illərdə Vaşinqton konfransında yaratmışlar. [3, s.50] Sonralar yeni dövlətlərarası strukturun - Birləşmiş Millətlər Təşkilatının yaranması ilə Millətlər Liqası 1946-cı ildə fəaliyyətini dayandırdı. Tarixi inkişaf boyunca müxtəlif cəmiyyətlərin birgə gələcəyə olan canatmaları müxtəlif ənənələrə malik və müxtəlif dillərdə danışan digər insan qrupları ilə birgə mövcudluq zərurəti ilə daima kəsişmişdir. Bu da konfliktlərə, tarixi müharibələrə gətirib çıxarmışdır. Niderland Burjua İnqilabının ideoloqu Hüqo Qrotsi "Müharibə və sülh hüququ haqqında" (1625) əsərində dövlətlərin münasibətlərinə hüquqi çərçivədən baxmağın vacibliyini qeyd edir. Əsərdə təbii hüquq və xalqların hüququnun təhlili verilmiş, ümumi hüququn prinsipləri açıqlanmışdır. H.Qrotsiyə görə, siyasi elmin predmeti məqsədyönlülük, faydalılıq, ədalət və hüquq deməkdir. "Müharibə və sülh hüququ" adlı əsərində ədalətli müharibə nəzəriyyəsinin müasir beynəlxalq hüquq sisteminə öz konseptini verən əsaslarını irəli sürür. Onun fikrincə, müharibənin mümkünlüyü beynəlxalq həyatın qanunları ilə hüquqiləşdirilməlidir, çünki müharibə istənilən dövlət tərəfindən özbaşına atılan addım olmamalıdır. Bəşər cəmiyyətinin böyük bəlasına çevrilmiş müharibələrin qarşısının alınması, sülün təmin edilməsi bu gün aktuallıq kəsb edir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbulu insan hüquqları və azadlıqlarının hansısa bir dövlətin daxili işi olmadığını göstərməklə yeni mərhələyə təkan vermiş oldu. Bu hüquqlar irqindən, etnik mənşəyindən, cinsindən, dinindən, dilindən və s. asılı olmayaraq, planetin bütün sakinlərinə şamil edilirdi. Ümumdünya bəyannaməsi ilkin, baza hüquqları möhkəmlətməklə, insan hüquqlarına dair bütün norma və prinsipləri göstərdi: yaşamaq hüququ, azadlıq hüququ, şəxsi toxunulmazlıq hüququ, bərabərlik hüququ. Deklarasiyada qeyd edilir ki, heç kim köləlikdə saxlana, insan ləyaqətini alçaldan işgəncələrə və təhqiramiz rəftara məruz qala bilməz. BMT-də beynəlxalq səviyyədə insan hüquqlarının qorunmasına xüsusi diqqət ayrılırdı. BMT nəzdində İnsan Hüquqları Komissiyası yaradıldı ki, onun əsas fəaliyyət istiqaməti İnsan hüquqları Xartiyasının (onu bəzən İnsan hüquqları haqqında Beynəlxalq Bill adlandırırlar) hazırlanması idi. Xartiyaya aşağıdakı sənədlər daxildir: Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (1948), İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq pakt (1966), Mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt (1966), birinci (1966) və ikinci (1989) fakultativ protokol ilə.

İnsan hüquqları konsepsiyasının işlənib hazırlanması və beynəlxalq standartlar səviyyəsinə qaldırılması bəşəriyyətin mühüm nailiyyətlərindən hesab olunur. İnsan hüquqları cəmiyyətdə baş verən bütün vacib hadisələri ölçməyə imkan verən universal dəyərdir. Hüquq və onun vacib tərkib hissəsi olan insan haqları siyasətin və dövlət hakimiyyətinin sərbəstlik sərhədlərinin müəyyən olunmasına xidmət edir.

İnsan hüquqları tarixinə Azərbaycan xalqının da azadlıq müharibəsi və bu sahədə qazandığı ictimai təcrübə daxildir. 1918-ci ilin 28 mayında Azərbaycan

Milli Şurasının Tiflisdə keçirilən ilk iclasında Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması elan edildi və "İstiqlal Bəyannaməsi" imzalandı. Azərbaycanın İstiqlal Bəyannaməsinin qəbulu Azərbaycan Xalq Cümhuriyyətini Müsəlman şərqində ilk parlamentli respublika, türk və İslam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi etdi. Azərbaycan Republikası XX əsrin sonlarında öz müstəqilliyini bərpa etdikdən sonda insan hüquqlarının müdafiəsi sahəsində geniş iş aparmış, məqsədyönlü siyasət yürüdərək bir çox beynəlxalq sənədə tərəfdar çıxmış və beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə etmişdir.

12 noyabr 1995-ci ildə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq ümumxalq səsverməsi referendumla qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası da dünya ictimaiyyətinin ali dəyər kimi qiymətləndirdiyi beynəlxalq hüquq normalarına, demokratik prinsiplərə əsaslanmaqla, xalqın sivil və hüquqi dövlətdə yaşamaq istəyini təcəssüm etdirir. Konstitusiyanın preambulasında dövlətin müstəqilliyinin və suverenliyinin qorunması, hüquqi, demokratik quruluşa təminat vermək, hüquqi dövlət qurmaq, insan hüquqlarının təminatlı müdafiəsinə, vətəndaş cəmiyyətinə nail olmaq mühüm vəzifələr kimi bəyan edilmişdir. Konstitusiyanın əsasında hakimiyyətin yeganə mənbəyi kimi xalqın tanınması, ölkənin bütövlüyünün qorunması, hakimiyyətlərin bölünməsi prinsipinə ciddi riayət olunması, insan hüquq və azadlıqlarının dövlətin ali məqsədi kimi bəyan edilməsi, beynəlxalq hüququn milli qanunvericilik üzərində üstünlüyü kimi hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna imkan verən mütərəqqi ideyalar dayanmışdır. Əsas Qanunda Azərbaycanın demokratik yolla inkişafının qaçılmaz olduğunu nəzərdə tutan şərt ali hakimiyyətin xalqa məxsus olmasının birmənalı şəkildə təsbit edilməsidir. [4, s. 4]

İnsan hüquqları hər bir kəsin cəmiyyət qarşısında həm özü, həm də digərləri qarşısında məsuliyyət daşımasıdır. Bu hüquqlar hər bir kəsin dövlət və cəmiyyət qarşısında məqsəd və prinsiplərini, hüquq və vəzifələrini tənzimləyir. İnsan hüquqları üzərində cəmiyyətin mədəni, dini, etnik müxtəlifliyi inkişaf edir, insan fəaliyyətinin hər sahəsində zorakılıq və özbaşnalığın qarşısı alınır. Dəyişkən dünyamız, beynəlxalq münasibətlərdə baş verən yeni əlaqə və çağırışlar milli mədəniyyətlərin, o cümlədən mədəniyyətlərarası münasibətlərin mövcudluğu və qorunması üçün hüquqi bazanın daima təkmilləşməsini və yeni hüquqi-normativ sənədlərlə zənginləşməsini tələb edir. Mədəniyyətlərarası dialoq, milli və ümumbəşəri dəyərlərin əlaqəsi multikulturalizm, tolerantlıq kimi anlayış və siyasi xətlərin vacibliyini yada salır. Bütün bunları nəzərə alan "Azərbaycan dövləti bu gün dünyada geniş vüsət alan beynəlxalq mədəni əməkdaşlıqda yaxından iştirak edir. Ölkəmizin son dövrlərdə bir sıra nüfuzlu beynəlxalq mədəni-humanitar tədbirlərə ev sahibliyi etməsi dövlətimizin xalqlar arasında, mədəniyyətlər arasında dialoqa necə önəm verməsinin əyani sübutudur." [1. s. 4]

## Ədəbiyyat:

1. Əhədova S. Müasir dünyada mədəniyyətlərarası münasibətlər. Bakı: Elm, 2014, 348 s.
2. Hacızadə H. Demokratiya: Gediləsi Uzun bir yol. Demokratiya və Antidemokratiya Antologiyası. Bakı: FAR CENTRE, 2002
3. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005
4. Həsənəliyev F. İnsan hüquq və azadlıqlarına daha etibarlı təminat mexanizmi / Azərbaycan qəz., Bakı, 2009, 5 mart
5. Mehdiyev F. Nəzəriyyə və təcrübədə insan hüquqları. Bakı: 2009

**Гюнеш Джабраилова**

**Права человека: убеждения и свободы**

**Резюме**

Права человека регулируют демократическое развитие любого общества. Проблема защиты прав граждан или отдельных индивидуумов считается одним из ключевых аспектов процесса глобализации. Права человека являются универсальными ценностями, позволяющие измерять все важные события, происходящие в обществе. Обеспечение прав и свобод человека в процессе глобализации - одна из актуальных проблем в системе международных отношений. Заострив внимание на событиях последних лет, можно увидеть рост числа террористических актов, гражданских войн, преступлений, конфликтов на этнической почве, производства ядерного оружия. В таких обстоятельствах значимой задачей выступают восстановление прав, предотвращение актов, направленных против основных прав человека и его свобод. Обеспечение прав человека является обязанностью каждого демократического государства. Разработка концепции прав человека и ее соответствие международным стандартам считается самым величайшим достижением человечества.

**Ключевые слова:** прав человека, свобода, законодательство, Великая хартия вольностей, конституция, демократическое государство

**Gunash Jabrayilova**

**Human rights: beliefs and freedoms**

**Summary**

The history of human rights is older than globalization. Human rights are regulators of democratic development of every society. The protection problem of the rights of citizens and separate individuals is considered as one of the main directions of globalization process. Human rights are universal values that allow to assess all important events in society. Ensuring human rights and freedoms in the globalization process is one of the urgent problems in the system of international

relations. If we pay attention to recent events, we can see the rapid expansion of events as terror acts, civil wars, crimes, ethnic conflicts, production of nuclear weapons. The important issue in such situation is restoration of rights and prevention of acts against the basic human rights and freedoms. Observation to human rights is a duty of every democratic state. Development and upgrading of the concept of human rights to international standards are considered as one of the greatest achievements of humanity.

**Keywords:** human rights, freedom, legislation, “the Great Charter of the Liberties” (Magna Carta), constitution, democratic state.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 18.01.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 25.01.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.02.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Tamilla Əhmədova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**